***Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının***

***02 avqust 2016-cı il tarixdə keçirilmiş iclasın protokolundan çıxarış***

---

*02 avqust 2016-cı il tarixdə Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının sədri Rauf Pənahovun sədrliyi ilə növbəti iclas keçirilmişdir.*

*İclasda Apellyasiya Şurasının üzvləri Rasim Quliyev, Əli Əsgərov, Zülfəli İsmayılov, Namiq Məmmədov, Akif Abdullayev, Katibliyin rəhbəri Zaur Ramazanov və Katibliyin üzvləri İlqar Əliyev, Teymur Mehdiyev, Ramil Qədimquliyev və Günel Məmmədova iştirak edirdilər.*

***<u>İclasda baxılmış və müzakirə olunmuş məsələlər:</u>***

*1. Vətəndaş Əlipənah Bilalovun Appelyasiya Şurasına müraciəti;*

*2. "Siqma" kiçik müəssisəsinin müraciətinə Apellyasiya Şurasında baxılması və bununla əlaqədar müvafiq Qərarın verilməsi.*

***Bu məsələlərlə bağlı ətraflı müzakirələr aparılmış, çıxışlar dinlənilmiş və yekunda <u>qərara alındı:</u>***

*1. "Siqma" kiçik müəssisəsinə tikinti zolağına qanunsuz girdiyinə görə müraciəti təmin edilməsin. Məsələ ilə bağlı müraciətçiyə cavab məktubunu gecikdirdiyinə və bununla "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozduğuna görə, Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhər ərazisinin tikinti-planlaşdırma idarəsinin baş mütəxəssisi Məhi Həsən oğlu Tağıyevə töhmət elan edilsin.*

*2. Vətəndaş Əlibala Bilalovun müraciəti sahibkarlıqla bağlı olmadığından, həmin müraciət Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq şöbəsinə göndərilərək müddətin bərpası məsələsinin qaldırılması xahiş olunsun.*